BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Humanitar elmlər seriyası 2015*

UOT 478210 852-1

# FİKRƏT SADIQ POEZİYASINDA MÜASİRLİK PROBLEMİ

**S.Ş.QULİYEVA**
***Bakı Dövlət Universiteti***
***samiquliyeva@mail.ru***

*XX əsrin 60-ci illərində yaradıcılıq fəaliyyətinə başlayan Fikrət Sadıq orijinal üslubuna, tarixə və müasirliyə yeni baxışı ilə fərqlənmişdir. Şairin poeziyasının ən başlıca keyfiyyəti onun milli bədii irsə söykənən şeirlərinin müasirlik ruhunda olmasıdır. Şair tarixi keçmişimizə, milli-mənəvi dəyərlərimizə müraciət edəndə aşıladığı fikri müasir problemlərlə bağlayır. Müəllifin istər lirik, istərsə də epik və dram əsərlərində bu mövzular aparıcı rol oynayır.*

**Açar sözlər:** əsas, məqalə, müəllif, müasir

Müasir Azərbaycan ədəbiyyatı yalnız özünün əsərləri əhatə edən fərdi tarixi təcrübəsinə və ənənəsinə dayaqlanmır. Bu ədəbiyyat həm də dərin, əzəli və müştərək ədəbi ənənələrə malik ümumtürk ədəbiyyatından qaynaqlanır. Ədəbiyyatımızı bu vahid kontekstdən kənarda təsəvvür etmək qeyri-mümkündür. Ədəbiyyatımızın dünya ədəbiyyatı müstəvisinə yönələn yolu məhz ümumtürk ədəbiyyatı sərhədindən başlanır. Fikrət Sadıq yaradıcılığı məhz ümumtürk tərzini, ümumtürk mənəviyyatını əks etdirməsi ilə diqqəti cəlb edir.

Yaradıcılığının bütün ideya-estetik məzmunu və qayəsi ilə xəlqi bir şair, xəlqi bir sənətkar olduğunu dönə-dönə təsdiq edən Fikrət Sadıq sadə xalqın bağrından qopan və məhz onun istək və arzularını, ruhunu tərənnüm edən bir qələm sahibidir. Onun ən yaxşı şeirləri vətənin müqəddəs torpağına, xalqın keşməkeşli tarixinə, narahat bu gününə və aydın sabahına həsr olunub. Oymaq-oymaq gəzib dolaşdığı, keçmişinə yaxşı bələd olduğu, gur sinəsindən ilhamının od aldığı vətənin, onun başı bəlalar çəkən, amma vüqarını itirməyən xalqının tərənnümü bütün şeirlərindən əlvan bir xətt kimi keçir.

Xalqın tarixi-mənəvi keçmişinin poetik təsvirində müasir poeziyamıza üslubi zənginlik gətirən şairlərdən biri kimi, F.Sadıq yaradıcılığı öz orijinallığı, özünəməxsusluğu ilə seçilir.

Yazıçı Anar F.Sadığa həsr etdiyi məqaləsində yazır: “F.Sadıq orijinal

poeziyasında heç kəsin təkrarı deyil, öz üslubu, öz dəsti-xətti, həyata öz baxışı olan şeir ustadıdır. Fikrət poeziyasında dilimizin incəliklərini dərindən-dərinə duymaq, kəlmələri, ifadələri zərgər dəqiqliyi ilə seçmək sözün müxtəlif çalarlarından, sözlərin bir-biri ilə qonşuluğundan, bir-birinə qoşulmasından, ya bir-birinə qarşı çıxmasından doğan gözlənilməz məna və obraz tapıntılarından faydalanmaq məharəti onu öz səsiylə seçilən sənətkarlarımızdan biri kimi təsdiq etmişdir" (1, 14).

F.Sadıq poeziyasının ən başlıca keyfiyyəti onun milli bədii irsə söykənən ədəbi ənənədən yaradıcı şəkildə bəhrələnən şeirlərinin müasirlik ruhunda olmasıdır. Çünki şair tarixi keçmişimizə, milli-mənəvi dəyərlərimizin, qan yaddaşımızın çevrilməmiş səhifələrinə müraciət edəndə də müasirlik aspektindən çıxış edir və aşıladığı fikri, ideyanı müasirliklə bağlayır. Çünki müasir olmayan ədəbiyyat poetik olmadığı kimi, müəllif qayəsinin tərənnümünə də yardımçı ola bilməz. Müasirlik ədəbiyyatın xarakterini, məzmun mündəricəsini müəyyənləşdirən başlıca keyfiyyətlərdən biridir. Müasirlik həm də şairin zamanın aktual problemlərinə həssas münasibət bəsləmək qabiliyyətinin göstəricisidir.

Poeziyanın, ümumiyyətlə ədəbiyyatın müasirliyi deyəndə bunu bəzən yanlış olaraq yalnız yaşadığımız dövrdən bu günümüzdən və həmin zaman hüdudunda cərəyan edən hadisələrdən bəhs edən əsərlər kimi başa düşənlər də var. Müasirlik kateqoriyasına bu cür baxış birtərəfli və məhdud baxışdır. Müasirlik təkcə bugünkü qayğılarımızdan, problemlərimizdən, yaşayışımızdan söhbət açan, müasir dövrü, zamanı, mühiti göstərən əsərlərə aid deyil, həmçinin yaxın və uzaq keçmişimizi, tariximizi əks etdirən və tarixi keçmişimizin bu gün üçün örnək olan, müasir nəslin bəhrələnə biləcəyi səciyyəvi xüsusiyyətlərini yüksək poetik təqdimatda təsvir və ifadə edən sənət nümunələri aiddir. Ədəbiyyatşünas alim K.Quliyev müasirlik anlayışının məhz bu cəhətini xarakterizə edərək yazır: "Sənətkar keçmişə müraciət edəndə də təsvir və tərənnüm obyektinə, faktlara məhz bu günün nöqteyi-nəzərindən yanaşır, xalqımızın tarixində baş verən hadisəni sadəcə yada salmaqla, xatırlamaqla kifayətlənmir, oxucuya "Tarixdən ibrət dərsi" verməyə səy edir, qadın mütərəqqi hadisələrə, milli azadlıq mübarizəsinə və bu mübarizənin qəhrəmanlarına, ata-babalarımızın müdrikliyinə və qəhrəmanlığına rəğbət və məhəbbət hissi aşılayır" (3, 68). F.Sadığın "Daşlar", "Bir dəstə çiçək", "Girdiman qayalarında payız", "Yanğın", "Qarlı şeirlər", "Taleyin acığına", "Ümid", "Əzabdı", "Qocalar evi", "Ömrün bir günü", "Ana əli", "Arzu bulağı" və s. şeir və poemalarının ideya-məzmun xüsusiyyətlərinin məhz müasirlik baxımından səciyyəsi həmin əsərlərin keyfiyyət göstəricisi kimi çox əlamətdardır.

F.Sadıq klassik poeziyamızın ən mütərəqqi nümunələrindən qəlbinin poeziya uğurları ilə seçilən, qəlbləri riqqətə gətirən şairdir. Öz poetik dərinliyi ilə seçilən bu dolu şeirlərin əksəriyyəti işıqla doludur. Bu işıq isə həyatdan gəlir. Bu kəşməkeşli dünyamızı işıqlı görmək istəyən F.Sadıq dünyanın hər addımında işıq axtarır.

Günəşin bir zərrəsiyəm-
İşıqdan gəlmişəm, gəlirəm, gələcəm
...Torpağın qaranlığı qorxutmur məni
Ox kimi sancılıb,
Yerin o üzündən çıxacağam,
İşığa dönmək üçün Yenə göyə qalxacağam (2, 23).

Fikrət Sadıq şeirlərində həyata, poetik obyektə baxışın özünəməxsusluğu, eləcə də poetik münasibətinin fərdiliyi onun yaradıcılığında müxtəlif janrlarla müraciətlə əlaqədar forma, janr və üslub müxtəlifliyini də meydana çıxarır. Onun yaradıcılığında poetik fikrin təzahür formaları müxtəlifdir. Bu müxtəlifliyin içində F.Sadıq şeirlərinin məziyyəti kimi fikrin təlqin edilməsində, ideya və mətləbin aşılanmasında konkret poetik detallardan istifadə əhəmiyyətli rol oynayır. Müəyyən mətləblər, ideyalar məhz həmin detal vasitəsi ilə açılır. Yusif Seyidov "Sözün qüdrəti" əsərində görün nə yazır: "Söz qalır deyirlər, söz olaydım. Bir də gələydim bu dünyaya". Sözə dönüb yaşamaq, şeirdə, sənətdə yaşamaq! Bu hiss, bu duyğu, müqəddəs arzu F.Sadıq şeirlərində ana laylası ilə başlayır. "Mən olmuşam ilk insanın ilk sözü, ilk pıçıltısı". "Hər kəlməmin beşik üstə kölgə salan qanadı var". Bu ilk sədadan ürəyinə poeziya xalı düşən, layla kəlmələrinin kölgəsindən Günəşə boylanan bir körpənin həyat yolu söz dəryasına qovuşur... (5, 24)

M.Ə.Sabirin anadan olmasının 100 illiyinə həsr etdiyi "Ömrün bir günü"ndə Fikrət Sadıq sözü ən güclü, qüvvətli bir silah hesab edir, onu şairin mübarizə vasitəsi kimi qiymətləndirir:

Topum yox, xəncərim yox.
Yenə də və yenə də
Sözə gəlir gümanım,
Sözdür mənim pənahım,
Sözdür mənim silahım.
Tuşladığın hədəfə
Sözü düz atmaq gərək.
Sözlə yatan milləti
Sözlə oyatmaq gərək.

Qələmini söz sənətinin bütün janrlarında sınayan Fikrət Sadıq yaradıcılığında müasir həyatla səsləşən mövzular olduqca çoxdur.

Həssas bir şair kimi tanınan Fikrət Sadıq insan və zaman probleminə biganə qalmayan, söz sənətinin qarşısında duran vəzifələri çox aydın başa düşən, öz duyğu və düşüncələrini, aşılamaq istədiyi ideyaları lirikanın vəzifələri ilə uzlaşdıra bilir. Bu da onun yaradıcılığına qol-qanad verir, onun qarşısında yeni üfüqlər açır. Fikrət Sadıq ədəbi-ictimai fikrin aspektlərini doğru-düzgün müəyyənləşdirən və yalnız həqiqət kimi qəbul etdirdiyi ideyaları poetikləşdirib, həmin fikrə xidmət etməyi özünün əsas vəzifə borcu bilir.

Ədəbiyyatşünas T.Mütəllimov F.Sadığın yaradıcılığına həsr etdiyi məqaləsində yazır: “F.Sadığın poeziyasındakı müasirlik, siyasi-ictimai və fəlsəfi mövzularda yazdığı əsərləri bütün yaradıcılığında qüvvətli bir xətti təşkil edərək, onun ictimai mündəricəsini daha da zənginləşdirir” (4).

F.Sadıq poeziyasının ən başlıca keyfiyyəti onun milli irsə söykənən, ədəbi ənənədən yaradıcı şəkildə bəhrələnən şeirlərinin müasirlik ruhunda olmuşdur. Çünki şair tarixi keçmişimizdən milli-mənəvi dəyərlərimizin, qan yaddaşımızın çevrilməmiş səhifələrinə müraciət edəndə də müasirlik aspektindən çıxış edir və aşıladığı fikri, ideyanı müasirliklə bağlayır. Çünki müasir olmayan ədəbiyyat poetik olmadığı kimi, müəllif qayəsinin tərənnümündə yardımçı ola bilməz. Ədəbiyyatşünas alim K.Quliyev müasirlik anlayışının məhz bu cəhətini xarakterizə edərək yazır: “Sənətkar keçmişə müraciət edəndə də təsvir və tərənnüm obyektinə, faktlara məhz bu gün nöqteyi-nəzərindən yanaşır, xalqımızın tarixində baş verən hadisəni sadəcə yada salmaqla, xatırlamaqla kifayətlənmir, oxucuya “Tarixdən ibrət dərsi” verməyə səy edir, keçmişin mənfi cəhətlərinə – haqsızlığa, ədalətsizliyə qarşı nifrət oyadır, mütərəqqi hadisələrə, milli azadlıq mübarizəsinə və bu mübarizənin qəhrəmanlarına, ata-babalarımızın müdrikliyinə və qəhrəmanlığına rəğbət və məhəbbət hissi aşılayır”. Fikrət Sadığın “Daş-ağac-insan”, “Qorxuram”, “Dünya öz işindədir”, “Doğmalarımın çiynində”, “Ruh”, “Çərxi-fələk”, “Səs”, “Var”, “Ömrün bir günü”, “İki mələk” və s. şeir və poemalarının ideya-məzmun xüsusiyyətlərini məhz müasirlik baxımından səciyyəsi həmin əsərlərin “keyfiyyət göstəricisi” kimi çox əlamətdardır. Xüsusilə ulu babalarımızın yurdsevərlik, vətənpərvərlik duyğularından, onların qoyduqları qayda-qanunlarının müqəddəsliyindən ibrət, nümunə götürməyə bizi səsləyir. Şairin bu mövzuya həsr olunmuş şeir və poemalarında yaddaşa müraciət, dünənlə bugün arasında genetik əlaqəni, bağlılığı göstərmək, tarixi keçmişimizi bugünümüzün gerçəkliyi ilə bağlamaq cəhdi çox aydın hiss olunur. Fikrət Sadığın mövzuları çoxdur, amma şairin yaradıcılığı bütöv halda ümid notları üstündə köklənmiş həzin bir melodiya təsiri bağışlayır:

Quş qanadına inanar,
Kor əl ağacına,
Mən ümidimə,
Quşun qanadı qırıla bilər,
Korun əl ağacı,
Ümidim yox.

Dünyanın indiki vaxtında şər qüvvələrin insanın sabaha inamını sarsıtdığı bir zamanda oxucuya ümid hissi aşılamaq bəlkə də sənətin əsas borcuna çevrilir. Ümidi qorumaq lazımdır. Belə olmasa şair demiş:

Vaxtdır bəli,
Bir əlac qalır onda...
Aç qapını, çağır əcəli!

Ümid deyəndə adamın yadına ən əvvəl işıq düşür. İstər ayın, ulduzların

işığı, günəş işığı olsun, istər tonqal işığı, istər şam işığı. İşıq insana həyat ümidi, yaşamaq ümidi verib. İnsana həyat verən təbiət ona yaşamaq üçün işıq da bəxş edib. İnsan onu yaradan, yaxud özünün yaratdığı tanrını daha çox zaman işıq kimi təsəvvür edib və işığın ölməzliyi insana fani dünyada ölməzlik ümidi verib:

Günəşin bir zərrəsiyəm,
İşıqdan gəlmişəm, gəlirəm, gələcəyəm.
...İnsan olanda bilmişəm.
İşığın qədrini
Torpağın qaranlığı
qorxutmur məni.
Ox kimi sancılıb
Yerin o üzündən çıxacağam.
İşığa dönmək üçün
Yenə göyə qalxacağam.

İnsanın həyat eşqinin sönməz alovu onun öz içindədir. İnsan zəkasının, insan ürəyinin, insan əməlinin alovu, hissi bu alovun işığına gələ-gələ insan olub. İnsanın mənəvi dünyasının günəşi insan özüdür – işıqlı arzuları, işıqlı idealları ilə, insanın mənəvi ölməzlik ümidi də bundadır:

Sevgi də,
ünsiyyət də,
söz də
işığa möhtac,
Beyin də
ürək də
göz də
işığa möhtac,
...Qəlbindəki
İşığın həcmi ilə ölçülür
insanın əməli.

Bu şeirin məğzində, mündəricəsində özünü göstərən əzəmət, səmimiyyət, əlbəttə ki, dünənlə bu günün arasındakı bağlılığa xidmət edən müasirlik ruhunun tərənnümündədir.

F.Sadığın üslubunun müasirliyi təkcə bu günün canlı hadisələrini, adi həqiqətlərini təsvir etməkdə, dövrün, zamanın aktual problemlərinə fəal münasibət bildirməkdə deyil, həyatın həqiqi tipik cizgilərini, insanlığın mahiyyət və çətinliklərini, sevincini və kədərini təfərrüatı ilə təsvir etməklə yanaşı, tərənnüm və təlqin edilən poetik materialın yüksək bədii həlli ilə şərtlənir. Belə əsərlərdə müasirlik hər şeydən əvvəl məzmun və mündəricəsinin dolğun, obrazlı təqdimatında özünü büruzə verir. Çünki müasirliyi ilk növbədə əsərin məzmununda, onun ideya-bədii həllində və mündəricəsində axtarmaq lazımdır.

Bu mənada F.Sadığın lirikası parlaq məzmuna və yüksək ideyalar aşılanmış mündəricəyə malikdir. «Yerdən göyə ümid» şeirlər kitabında olan bir şeirə müraciət edək:

Bir nağıl bilirdim mən,
Şirin, dadlı bir nağıl!
Hərənin bir ulduzu var.
Deyərdilər göydə,
Demə yalanmış bu,
Nağılmış demə.
Asılmışıq hamımız
Bir ulduzun ətəyindən.

Əzəldən bəri nağıllarımızın işıqlı dünyası, zülmət dünyası olub, ağ divi, qara divi, ağ qoçu, qara qoçu olub. Nağıllarımızın Günəş qəhrəmanı olub. Ancaq F.Sadığın poeziyasında bu motivlər təkrar kimi görünmür. Onun əsərlərinin nağılvari sadəlövhlüyü arxasında iyirminci əsr şairinin yaşadığı zaman və mühit haqqında sərt və güzəştsiz qənaətləri durur.

F.Sadıq yaradıcılığında müasirlik hissinin güclü olduğunu göstərən alimlərdən biri onun milli məhdudiyyət tanımaması, milli çərçivəyə qapanmaması ilə şərtlənir. Onun lirikasında bəşəri mövzularla yanaşı, beynəlxalq aləmin ən mühüm hadisələri, dünyəvi-qlobal məsələlərə münasibət xüsusi yer tutur. “Ulduz davası”, “Tanrı türkü qorusun”, “Azadlıq”, “Paris”, “Oktyabr inqilabı və kapitalizm” şeirlərində müstəqillik və bütövlük uğrunda mübarizə, sülhsevərlik və demokratizm ideyaları təsvir edilir, özlərini sivil, inkişaf etmiş, ən mədəni ölkələr cərgəsində hesab edən hüquq təminatçıları kimi göstərənlərin ölkəsində baş verən ədalətsizlik, milli ayrı-seçkilik, xalqları əsarətdə saxlamaq meylləri ifşa olunur.

Ədəbiyyatşünas A.N.Urban müasir poeziyanın həll edəcəyi problemlər barədə yazır: “Müasir poeziyanın diqqətini insan bütün varlığı, bütün imkanları ilə cəlb edir. Hətta insan ölüm və həyat qarşısında, öz vicdanı və cəmiyyətin divanı qarşısında qaldığı xoşbəxtlik və bədbəxtlik zamanı, sonsuz ümidsizliyə qapıldığın, sevdiyi, qorxduğu və sevindiyi anlarda da...” (6, 251)

Ədəbiyyatşünas M.Məmmədovun müasirliklə bağlı bir qeydi də maraqlıdır: “Müasirlik sənətkarın mənsub olduğu dövrün ümumbəşəri problemlərini öz əsərlərinin məğzinə və ruhuna hopmasıdır. Vətəndaşlıq, ictimai-fəlsəfi fikir dərinliyi sənətdə müasirliyin əsas göstəricilərindəndir. Müasirlik zamanın bu günü və gələcəyi üçün sənətkarın cavabdehliyidir”.

Beləliklə, müasirlik F.Sadığın öz sənətinin üzvi bir keyfiyyəti olaraq onun yaradıcılıq pafosunun əsas qaynağını təşkil edir. Bu məqam onunla səciyyələnir ki, zamanın ruhu və hərəkəti şairin ideya inamı ilə, mənəvi-əxlaqi qənaətləri ilə birləşir, onun poetik düşüncə və vətəndaşlıq ehtirasında təsdiq olunur.

**ƏDƏBİYYAT**

1. Anar. Fikrət Sadıq. Xüsusi buraxılış. Bakı: Yazıçı, 2000, 98 s.
2. Fikrət Sadıq. Dünya öz içindədir. Bakı: Yazıçı, 1989, 182 s.
3. Quliyev K. Lirika və qəhrəman. Bakı: Yazıçı, 1983, 197 s.
4. Mütəllimov T. Dəniz küçəmizə gəlir. "Kommunist" qəz., 1969.
4 (a) Məmmədov M. Poeziya yeni təfəkkür işığında. Bakı: Yazıçı, 1993, 176 s.
5. Seyidov Y. Sözün qüdrəti. Bakı: Yazıçı, 1983, 282 s.
6. Урбан А.Н. Возвышение человека. Художественная литература. 1968, 251 с.

## ПРОБЛЕМА СОВРЕМЕННОСТИ В ПОЭЗИИ ФИКРЕТ САДЫГА

**С.Ш.ГУЛИЕВА**

**РЕЗЮМЕ**

Фикрет Садыг является одним из молодых поэтов, пришедших в мир поэзии в 60-х годах XX века. Своими первыми (1953) произведениями он обратил на себя внимание читателей.

В статье уделяется особое внимание произведениям автора соответствующим современной проблеме.

**Ключевые слова**: дата, автор, современность, поэзия, время

## THE PROBLEM OF MODERNISM IN FIKRAT SADIG'S POETRY

**S.Sh.GULIYEVA**

**SUMMARY**

Fikret Sadig is one of the youngest poets of the XX century poetry. He attracted the attention of other writers with his first writings. His creativity differs with its originality and uniqueness.

The article focuses much attention on the poet's works that reflect the problems of modern time.

**Key words:** main, article, author, modern